**Natella Zakir qızı QULİYEVA**
Bakı Avrasiya Universitetinin dissertantı
E-mail: n.zakirli@gmail.com

# SƏRDAR ƏSƏDİN ÖMÜR YOLUNUN MƏNƏVİ-PSİXOLOJİ CİZGİLƏRİ

**Xülasə**

Keçən əsrin 50-ci illərində yaradıcılığa şeirlə başlamış S.Əsəd tez bir zamanda diqqəti cəlb etmiş, həm saf, səmimi və təravətli şeirləri, həm də yapışıqlı, istiqanlı xarakteri və milli dəyərlərə bağlılığı ilə dövrünün milli əqidəli ziyalılarının diqqətini cəlb etmişdir. Bütün fiziki və yaradıcı ömrü sovet epoxasına təsadüf edən şair öz yaradıcılığında sosializm realizmi yaradıcılıq metodunun sərt məcburi prinsiplərinə görə sovet quruculuğunu da tərənnüm etsə də, ömrünün sonuna qədər bütün varlığı ilə milli-mənəvi dəyərlərə bağlı qalmışdır. Bu cəhətdən, sənətkarın yaradıcılığında milli kimliyin hər vasitə ilə tərənnümü özünü davamedici xətt kimi göstərir. S.Əsəd, emosional təbiətli bir insan kimi, öz milli əqidəsinə qarşı getməyi, onları tamamilə ört-basdır etməyi bacarmadığı üçün daim ədəbi mühitin sovet reallıqları ilə ziddiyyətdə olmuşdur. Onun məğrur təbiətini və milli əqidəsini təcəssüm etdirən poeziyası S.Əsəd kimliyinin mənəvi-psixoloji obrazını özündə bariz şəkildə əks etdirən ən parlaq və nəhəng qaynaq kimi qalmaqdadır.

**Açar sözlər:** *Sərdar Əsəd, Azərbaycan poeziyası, şeir, bioqrafiya, repressiya, intihar, milli-mənəvi dəyərlər*

**UOT:** 82
**DOİ:**10/54414/SGXE6730

**Giriş**

XX əsr Azərbaycan ədəbiyyatının istedadlı və tanınmış nümayəndələrindən olmuş S.Əsədin də poeziyasını və ümumən bütün yaradıcılığını onun bədii bioqrafiyası saymaq olar. Yüksək poetik istedadı və xarakter mütləqliyi ilə çox narahat, üzücü, mənəvi sarsıntılarla dolu ömür yaşamış sənətkarın bütün varlığı ilə sevdiyi, zövq aldığı, yazmaq-yaratmaq eşqi ilə çoşub-daşdığı dünyadan intihar hadisəsi ilə köç etməsi onun bioqrafiyasını XX əsr Azərbaycan ədəbi mühitinin həm kədər, həm də sirlə dolu hadisəsinə çevrilmişdir. Lakin onun yaradıcılığına, poetik dünyasına zamanın axarı boyunca nəzər saldıqda S.Əsədi şairə, yaradıcı insana çevirən və axırda da onu məhv edən ədəbi mühitin obrazını görməmək olmur.

**Tədqiqat**

Bu barədə Savalan Fərəcovun bir müşahidəsi səciyyəvidir. S.Əsədin bütün poeziyasını "şair ürəyinin çırpıntıları" adlandıran müəllif göstərir ki, şairin "Ömür keçdi yarıdan" şeirində onun nə qədər çətin, ancaq maraqlı, mənalı bir həyat yolu keçdiyinin şahidi olursan. Onun yaradıcılığında həyata baxışı çox fərdidir. 1954-cü ildə qələmə aldığı "Şairin arzusu" şeirində yazır:

Yerli-yerində hər söz
Qiymətli bir incidir.
Ürəkdən gəlməyənlər
Ürəkləri incidir.

Şair çox düzgün olaraq qeyd edir ki, *"şeir misraları şairin "ürək çırpıntıları"dır. Şeirdə hər bir söz yerli-yerində olmalı, qəlbdən gəlməlidir. Belə olmasa, oxucu şairdən inciyər və şeirdən uzaq düşər"* [12]. Bu fikirdən də aydın olur ki, S.Əsədin şair kimliyi, poetik varlığı, ədəbi bioqrafiyası bütüövlükdə onun şeirlərində, bütün yaradıcılığında inikas olunmuşdur və bu cəhətdən bir sənətkarın biroqrafiyasının ən böyük qaynağı elə onun yaradıcılığıdır.

S.Əsəd ömrünün qısa bioqrafik göstəriciləri kənddə doğulmuş bir sovet ziyalısı üçün xarakterik olan göstəriciləri əks etdirir. O, 1929-cu il avqustun 29-da Cəbrayıl rayonunun Soltanlı kəndində anadan olmuşdur. 1955-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsini bitirmişdir. Poeziya ilə yanaşı idmana da marağı vardı. Hətta 1955-ci ildə institutun ali məktəblərarası ştanq yarışlarında birinci yeri tutmuşdur.

1958-1963-cü illərdə məşhur ədəbiyyat qəzeti olan "Ədəbiyyat və incəsənət"də beş il (1958-1963) işləmişdir.

30 iyun 1975-ci ildə (46 yaşında) ömrünü intiharla başa vuran S.Əsəd kifayət qədər zəngin məzmuna malik bədii irs qoyub getmişdir. Şairin keçən əsrin 50-70-ci illəri arasında çap olunmuş

"Gənclik illəri", "Səni axtarıram", "Yanan me-mar" , "Cərrah ürəyi", "Simlərin tufanı", "Yer ulduzu", "Dağları aşdı sellər", "Gözəl", "Meşədə qonaqlıq" kimi kitabları [bax: 2; 3; 4; 5; 6; 7; 8; 9; 10; 11] bu gün də şeirsevərlərin kitabxanalarını bəzəməkdədir. Bu kitablar İbrahim Soltan, Nəriman Həsənzadə, Məmməd Araz, Eyvaz Borçalı, Ələkbər Salahzadə və başqa ədəbi şəxsiyyətlərin redaktorluğu ilə çap olunmuşdur.

Qeyd edək ki, S.Əsəd eyni zamanda bədii tərcümə ilə də məşğul olmuşdur.

Özünün uzun olmayan ömür çərçivəsində ədəbi mühitdə tez bir zamanda tanınmağı bacarmış, dövrünün qabaqçıl milli ziyalıları ilə yaxın münasibətləri olmuş şairin ölümü ədəbi mühiti, xüsusilə onunla milli düşüncələr baxımından əqidədaş olan dostlarını yandırıb-yaxmışdır. Flora Xəlilzadə S.Əsəd yaradıcılığı haqqındakı məqaləsində göstərir ki, mən Sərdar Əsəd haqqında böyük şairimiz Məmməd Arazdan eşitmişəm. Onlar çox yaxın dost idilər. Heç yadımdan çıxmaz. Sərdar Əsəd intihar etdikdən sonra uzun müddət Məmməd əmi (M.Araz – N.Q.) özünə gələ bilmirdi. Ona təsəlli verməyə, "möhkəm ol" deməyə söz tapa bilmirdim. Sərdar Əsədin adı gələndə həmişə gözləri dolardı: *"Biz 20 ilin dostu idik. Bir tikəmizi yarı bölmüşdük. Qoruya bilmədik onu, saxlaya bilmədik onu"* [14].

M.Arazın öz dostunun ölümünə belə ağır reaksiya verməsi onların arasında olmuş dərin münasibətlərdən xəbər verməklə yanaşı, S.Əsədin 50-70-ci illər ədəbi mühütinin milli əqidəyə malik aparıcı simaları arasında hansı mövqeyə malik olduğunu da ortaya qoyur. M.Araz XX əsr Azərbaycan poeziyasının S.Vurğun, R.Rza, B.Vahabzadə kimi poetik üslub yaratmış şairlərindən sonra poeziyada özünəməxsus dəst-xətti, poetik məktəbi və bu gün belə ardıcılları olan az saylı simalardandır. Bu cəhətdən, M.Arazın onun ölümündən sonra uzun müddət özünə gələ bilməməsinin iki səbəbi var idi: biri yaxın dostunun, qəlbdaşının, əqidədaşının ölümü, o birisi Azərbaycan poeziyasının istedadlı şairinin itkisi.

S.Əsədin M.Arazla yaxınlığını göstərən faktların birindən Vaqif Yusifli bəhs etmişdir. Müəllif göstərir ki, S.Əsəd hələ ölümünə 4 il qalmış, 1971-ci ilin 17 noyabr günündə gecə vaxtı, düzü-dünyanı sakitlik bürüyəndən və hamı yatandan sonra üzündə qəm nişanəsi belə bir yaddaş yazdı: *"Özüm olmadığım təqdirdə mənim arxivim Məmməd Araz, Ələkbər Salahzadə, İsa İsmayılzadənin diqqətli qayğısı ilə açıla bilər. Sərdar Əsəd. 17.XII.1971"* [17].

Bu qeyddən aydın olur ki, M.Araz, Ə.Salahzadə və İ.İsmayılzadə sənətkarın qəlb dünyasına, milli əqidəsinə ən yaxın insanlar olmuşlar. Başqa cür olsa idi, S.Əsəd arxivinin özündən sonra açılmasını məhz bu insanlara etibar etməzdi.

S.Əsəd həm bir şair, həm də bir insan kimi öz müasirlərinin, dostlarının rəğbətini qazanmışdı. S.Fərəcov göstərir ki, onun xatirəsi ölümündən çox sonralar da müasirlərinin qəlbində yaşamaqda davam etməkdədir. S.Əsədin yaradıcılığının ən coşqun çağında – ömrünün 46-cı baharında dünyasını dəyişdiyini və bu qəfil köçün o vaxt çox ürəkləri kövrəltdiyini vurğulayan müəllif yazır: *"Sərdar Əsəd yaradıcılığı ilə yaxından tanış olan ziyalılar məclisində dəfələrlə onun necə hörmət və ehtiramla yad edildiyinin şahidi olmuşam"* [12].

S.Əsədin ömür yolu, şəxsiyyətinin müxtəlif cəhətləri haqqında ədəbi müasirləri, onu yaxından tanıyanlar bəhs etmişlər. Həmin əsərlərdə onunla bağlı maraqlı xatirələr də öz əksini tapmışdır. Böyük bir səmimiyyətlə təsvir olunmuş xatirələrdə sənətkarın ömür yolunun, insani və ədəbi kimliyinin çox maraqlı və özünməxsus cəhətləri də öz əksini tapmışdır. Bu cəhətdən, Tahir Kazımovun "Balaca suçu"nun xatirələri" yazısı diqqəti cəlb edir [16].

S.Əsədlə eyni kənddən–Cəbrayıl rayonunun Soltanlı kəndindən olan T.Kazımovun gənc şairlə ilk tanışlığı pambıq sahəsində baş verib. Sovet dövründə yuxarı sinif şagirdlərini dərsdən ayırıb kolxoz tarlalarındakı işlərə cəlb edirdilər. 1958-ci ildə öz kəndinin pambıq tarlasında işləyən yuxarı sinif şagirdlərini görməyə gələn S.Əsəd o vaxt arıq, çəlimsiz uşaq olan T.Kazımovu "balaca suçu" adlandırır. S.Əsəd bir qədər sonra T.Kazımov haqqında məqalə yazıb, onu "Ədəbiyyat və incəsənət" qəzetində çap etdirir və öz atasının vasitəsilə məktəbli Tahirə yollayır: *"Sərdar mənim haqqımda "Balaca suçu" adlı oçerk yazmışdı. Hətta şəklimi də verdirmişdi. Sevincimin həddi yox idi. Balaca iş deyildi. Respublikanın nüfuzlu qəzetində mənim haqqımda yazı getmişdi, özü də o illərdə populyar olan şair Sərdar Əsəd yazmışdı. Yüksək pafosla, həvəs və*

*fərəhlə şeir üslubunda oşerki sinif yoldaşlarıma, evdə savadsız anama oxuyurdum"* [16].

Bu kövrək xatirədən S.Əsədin doğma yurda, el-obaya məhəbbət bəsləyən bir insan olduğu açıq şəkildə görünür. O, həmkəndlisi olan məktəbli uşağı öz oçerkinin qəhrəmanına çevirməklə bir Azərbaycanlı balasının qəlbində heç vaxt sönməyəcək xatirə ocağı qalamışdır.

S.Əsəd "Gənclik" nəşriyyatında işləyərkən T.Kazımov onunla tez-tez görüşürmüş. Bu cəhətdən, S.Əsəd müəllifin yaddaşında coşğun bir ədəbiyyat vurğunu kimi qalmışdır. Müəllif xatırlayır ki, hərdən nəşriyyatın aşağısındakı balaca bağda çay içib söhbətləşərdik. Həyatdan, sevgidən, insanlara olan məhəbbətdən böyük ehtiras və məhəbbətlə danışardı. *"Lakin nədənsə həmişə gözlərinin dərinliyində kədər duyulurdu, küskün və fikirli görünürdü.Onu daxilən, mənən üzən hisslərindən, düşüncə və fikirlərindən mənə danışmazdı, yaqin yaş fərqimizə görə idi"* [16].

T.Kazımovun bu xatirəsi bizə S.Əsədin bir insan və yaradıcı şəxsiyyət olaraq bioqrafik portretinin bir sıra xarakterik cizgilərini gözlərimiz önündə canlandırmağa imkan verir:

– O, şeirə, ədəbiyyata, ümumən bədii yaradıcılığa son dərəcə vurğun bir insan olmuş,poeziya ilə nəfəs almış, bədii yaradıcılıq onun varlığının stixial mahiyyətini, yəni fitrətdən gələn mənəvi cövhərini təşkil etmişdir. Təsadüfi deyildir ki, ürəyi yazıb-yaratmaq eşqi ilə coşub-daşan şair 1954-cü ildə yazdığı "Şairin arzusu" şeirində özünün şair taleyini, poetik-mənəvi kimliyini belə qələmə almışdır:

Bu axşam da canımda
Yenə şeir odu var.
İnsan düşüncəsinin
Deyirəm, şeir adlı
Nə nadir övladı var [2, s. 13].

Bu misralardan göründüyü kimi, anadan şairlik istedadı ilə doğulmuş, bütün yaradıcı ömrü boyunca şeir yaradıcılığından heç vaxt ayrılmamış S.Əsəd üçün şeir hadisəsi bütün ömrü boyunca bədii möcüzə, yaxud özünün dediyi kimi, "insan düşüncəsinin nadir "övladı" olaraq qalmışdır.

– T.Kazımovun xatirəsindən göründüyü kimi, sənətkarın içərisində olan poetik yaradıcılıq potensiyası onun həm rəsmi ədəbi mühitdə, həm də dostlar-doğmalar arasında da xarakterinin səciyyəvi keyfiyyətlərini müəyyənləşdirmişdir. Harada olursa-olsun, fərqi olmamış, ədəbiyyat söhbətləri onun mənəvi kimliyinin əsas göstəricisi olmuşdur.Poeziya S.Əsəd ömrünün mənası olmuş, içərisində coşub-daşan şeir odu onu ta erkən gəncliyindən yalnız yazıb-yaratmağa səsləmişdir:

Hələ dilim yoxsa da
Deyəm, sənət yolunda
Mənim də bir izim var;
Hiss edirəm, şeirlə
Deməli bir sözüm var [2, s. 13].

– T.Kazımovun S.Əsədin simasında daim müşahidə etdiyi üzüntünün özü də şairin ədəbi həyatdakı mövqeyindən xəbər verir. Bir insan kimi mənəvi-əxlaqi, bir millət oğlu kimi milli-etnik dəyərlərə sıx şəkildə bağlı olan sənətkarın həyatı həm də mənəvi sıxıntıların içərisində keçmiş və bu sıxıntılar onun şair simasının daimi cizgisinə çevrilmişdir.

S.Əsədi yaxından tanıyan, onun həm insani, həm də bədii kimliyinə dərindən bələd olan, eyni zamanda sənətkarın bədii irsinin və yaradıcı kimliyinin təbliğində baş redaktoru olduğu "Kredo" qəzeti vasitəsilə dəyərli işlər görmüş Əli Rza Xələfli onun mənəvi təlatümlərlə dolu ömür yaşadığını vurğulayaraq göstərir ki, *"cəmiyyət çox vaxt istedadı görmür, bəlkə də, görmək istəmir. Cəmiyyət bir çox hallarda onun özünün sərvəti olan, cəmiyyətin özünün yaşarılığını təmin edə bilən istedada qarşı göz yumur. Bu, bizə də xasdır, elə digər xalqlara da"* [13]. Bu cəhətdən, müəllif S.Əsədi bütün ömrünü ögeylik mühitində yaşamış S.Bəhlulzadənin həyatı ilə müqayisə edərək, şairin də dünyasının bütün təlatümlərinin, qəzəblərinin, etirazlarının hamısının mayasının həmin ögeylik mühitindən qaynaqlandığını göstərir [13].

Yusif Dirili S.Əsəd haqqında öz atasının xatirələrindən bəhs edən yazısında sənətkarın narazı, narahat ömür yaşadığını xüsusi vurğulayır. Atasının xatirələrindən bəlli olur ki, şair dəlicəsinə şeir vurğunu olmuş, qəlbindəki mənəvi sarsıntı və təlatümləri şeirlə ovutmağa çalışmışdır. Bir gecə S.Əsədin qonağı olan ata xatırlayır ki, həmin gecə nə vaxt oyandımsa, onu şeir deyən gördüm. Sanki nədənsə narazıydı. Doğrusu, hələ o vaxtacan şairlə üz-üzə, diz-dizə oturmamışdım. Sərdar Əsəd coşqun, təbli şair kimi yadımda qalmışdı. Açıq-aydın hiss olunurdu ki, özünə qarşı kimlərdənsə qayğısızlıq, laqeydlik görüb. Və həm də biganəlik

ondan əl çəkmir, onu daim təqib edir. Bu, mühitdən idimi, şəraitdənmi, şəxsi həyatıydımı, iş yeriydimi, yoxsa, məktəbdənmi gəlirdi onu daxilən əzən qüvvə, üzündəki iztirab qarışıq narahat hərəkətlərində, narazı danışıqlarında, gileyli şeirlərində görünürdü laqeydliyin ifadəsi... Nə qədər yorğun olsam da, qısa vaxtda məni özünə simsar bilən bu sadə, səmimi, zəngin, təbli şairin narazılıq ifadə edən baxışları, davranışı yuxumu göyə çəkmişdi. Bununla belə zaman başqaydı. Həm də elə o vaxtlar şair bu cür qəbul olunurdu: daim narahat, coşqun. Sərdar Əsəd kimi söz yiyəsinin narahatçılığı isə dövrün insanlara qarşı hədsiz ögeyliyindən irəli gəlirdi. *“Ya rejimi mənimsəmək, ya da rədd etmək! Sərdar azad yaradıcı vətəndaş kimi ikincini seçdiyi üçün öz qəbrini qabaqcadan qazmışdı...”* [1].

Keçən əsrin 60-cı illərinin birinci yarısına aid olan bu xatirə bizə S.Əsəd şəxsiyyətinin,sosial-mənəvi kimliyinin bir sıra mühüm cəhətlərini aydınlaşdırmağa imkan verir. Xatirədən ilk növbədə o, məlum olur ki, S.Əsəd emosional insan olmuşdur. Yaşadığı nakam sevgi onun qəlbində dərin izlər buraxmışdır. Lakin onun mənəviyyat dünyası təkcə şəxsi sevgi hissləri üzərində qurulmamışdı. Onun sevgisi son dərəcə böyük hadisə olub, milləti, xalqı, milli-mənəvi dəyərləri bütövlükdə əhatə edirdi. Bunu onun şeirlərindən aydın şəkildə görmək olur. Yaradıcılığında sovet-sosialist dəyərlərindən də bəhs etməyə məcbur olan S.Əsədin ürəyi, qəlbi, mənəvi kimliyi bütövlükdə Azərbaycana, onun dilinə, tarixinə, sovetləşdirmə siyasəti ilə assimilyasiya etdirilən milli kimliyinə bağlı idi. Sənətkar bu cəhətdən qəlbindəki böyük millət sevgisinə qarşı gedə, sovet ideologiyasının “çaldığı havalara” köklənə, bir sıra müasirləri kimi bu havalara “qol götürüb, şıdırğı rəqs edə” bilmirdi. Ona görə də qəlbi daim təlatümlərlə coşub-daşır, yaradıcılığında milli həqiqətləri bədii donda da olsa deməkdən özünü saxlaya bilməyib, sovet ədəbiyyat avtoritetlərinin qəzəbinə gəlir, işsizliklə cəzalandırılır və bütün bunların yaratdığı mənəvi əzabları yaşamalı olurdu. Bu cəhətdən, V.Yusiflinin “Sərdar Əsəd. Sevgidən intihara” adlı məqaləsində, belə demək mümkünsə, açıq şəkildə bəhs olunmuşdur.

V.Yusifli sənətkarın milli dəyərlərə qarşı həssaslığının onun ailə-nəsil taleyi ilə bağlı olduğunu göstərərək bildirir ki, Sərdar Əsəd Cəbrayılın Soltanlı kəndində dünyaya gələn bir insan kimi elə ağlı, şüuru kəsəndən repressiya qasırğasına tuş olub. Atası Heydər kişi Sovetin əleyhinə qaçaqçılıq edirmiş. Və qaçaq atasına görə anası və böyük bacısıyla bir yerdə Sibirə sürgün olunur. Doğrudur, tezliklə onlar Sibirdən qayıdırlar, çünki atası qaçaqçılıqdan çəkinir. Amma bu hadisə gələcək şairin həyatından hələm-hələm silinib gedə bilməzdi. Sonrakı illər sakit keçir. O da hamı kimi orta məktəb bitirir. O zaman Leninin adını daşıyan Pedaqoji İnstitutun filologiya fakültəsində təhsil alır. Sonra da Süleyman Rəhimovun köməkliyi ilə “Ədəbiyyat və incəsənət” qəzetində işə düzəlir. Sonra şeir kitabları çap olunur. Əlfi Qasımovla, Əli Kərimlə, Tofiq Bayramla, Məmməd Arazla, Ələkbər Salahzadə, Səttar Bəhlulzadə ilə oturub-durur. V.Yusifli bunu yarımhəqiqi, yarımironik mənada *“Xoşbəxt ədəbi həyat”* adlandırır [17].

Bizcə, bütün yaradıcı ömrünü Azərbaycan ədəbi mühitinin görkəmli simalarının arasında keçirmiş, bu mühitin, necə deyərlər, “daxili mətbəxinə”, “ab-havasına”, “pərdəarxası oyunlarına” dərindən bələd olan V.Yusiflinin S.Əsədin faciəli taleyi haqqında yazdıqları həqiqəti əks etdirir və bu həqiqəti təsdiq edən ən böyük və inkarolunmaz “dəlil-sübut” ədəbin öz yaradıcılığıdır. Onun bütün şeirlərinin alt qatı var: başdan-başa millət, xalq sevgisi ilə süslənmiş həmin alt qat bu şeirlərdə daim üzə çıxmağa, özünü göstərməyə, mətnin “əsil həqiqətinin” ifadəsi kimi oxucu ilə görüşməyə can atır.

V.Yusiflinin S.Əsədin ailə-nəsil taleyi ilə yazdıqları onun mənəviyyat dünyasının haradan qaynaqlandığını açıq şəkildə göstərir. O, bu cəhətdən, öz ailəsinin, nəslinin taleyinin daşıyıcısı olmuş, atası sovet quruluşunu, ideologiyasını qəbul edə bilmədiyi kimi, o da bu quruluşla daxilən heç vaxt barışmamışdır. Ancaq sovet repressiyasının qurbanı olmuş ailələrdə böyümüş uşaqların bir çoxu sonralar bu quruluşa qarşı öz gerçək daxili münasibətlərini gizlətməyə nail olsalar da, S.Əsəd çox vaxt özünə qalib gələ bilməmiş, milli əqidəsini zaman-zaman şeirlərində ifadə etmişdir. Düzdür, o, bütün bunlara görə 37-ci ilin qanlı repressiyalarında olduğu kimi divara söykənilib güllənməsə də, sovet rejiminin ədəbiyyat aləmində azad düşüncəli insanları boğan mühiti ədibi yumşaq repressiyalar, mənəvi təzyiqlərlə inthar həddinəcən çatdırmağı bacarmışdır.

İsmayıl Kazımovun 29 dekabr 2004-cü ildə Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda S.Əsədin anadan olmasının 75-illiyinə həsr olunmuş tədbirdəki çıxışından məlum olur ki, şairin atası Heydər kişi qəhrəman cüssəli və inanclı insan olmuşdur. Sərdarın babası Kərbalanı ziyarət etdiyi üçün el arasında Kərbəlayı Mehdi adı ilə tanınırmış [15].

Mənəvi dəyərlərə, Azərbaycan xalqının dini-ənənəvi inanclarına bağlılıq dədə-babalarında olduğu kimi, S.Əsədin də mənəvi yaddaşının ayrılmaz cizgisi idi. İ.Kazımov xatırlayır ki, o, uşaq olanda S.Əsəd gənc idi. *"Dədə-baba yurdu Soltanlıya tez-tez gələrdi. Çiynində çox vaxt tüfəngi olardı. Aşağı bağa enərdi. Diri dağına qalxardı. Ovçu Qaçay deyilən kişi ilə. Məqsədi ov etmək yox, təbiəti seyr etmək idi"* [15].

Təbiətin, dünyanın, varlığın ilahi gözəlliklərinin vurğunu olan S.Əsədi Diri dağına aparıb çıxaran təkcə o dağın təbii-fiziki gözəlliyi deyildi. Şübhəsiz ki, şair təbiətin, xüsusilə dağların vurğunu olmuşdur. Onun dağlara həsr etdiyi şeirlər bu vurğunluğu açıq şəkildə təcəssüm etdirir. Ancaq Diri dağ həm də ziyarətgah olmuşdur. Bizcə, S.Əsədi oraya çəkib aparan da elə bu dağın ilahi cazibəsi idi.

**İşin yeniliyi və nəticə:** Bütün bu xatirələr göstərir ki, yaradıcılığa keçən əsrin 50-ci illərində şeirlə başlamış S.Əsəd tez bir zamanda diqqəti cəlb etmiş, həm saf, səmimi və təravətli şeirləri, həm də yapışıqlı, istiqanlı xarakteri və milli dəyərlərə bağlılığı ilə dövrünün milli əqidəli ziyalılarının diqqətini cəlb etmişdir. Bütün fiziki və yaradıcı ömrü sovet epoxasına təsadüf edən şair öz yaradıcılığında sosializm realizmi yaradıcılıq metodunun sərt məcburi prinsiplərinə görə sovet quruculuğunu da tərənnüm etsə də, ömrünün sonuna qədər bütün varlığı ilə milli-mənəvi dəyərlərə bağlı qalmışdır. Bu cəhətdən, sənətkarın yaradıcılığında milli kimliyin hər vasitə ilə tərənnümü özünü davamedici xətt kimi göstərir. S.Əsəd emosional təbiətli bir insan kimi öz milli əqidəsinə qarşı getməyi, onları tamamilə ört-basdır etməyi bacarmadığı üçün daim ədəbi mühitin sovet reallıqları ilə ziddiyyətdə olmuşdur. Sovet ədəbiyyat "generalları" və "nökərləri" ona müxtəlif şəkillərdə təzyiqlər etmişlər. Bunun əsas forması işsizlik olmuşdur. İşsizliyin yaratdığı maddi sıxıntılar ona mənəvi əzablar vermiş və əqidəsindən dönməyi bacarmayan şair intihar etməyə məcbur olmuşdur. Onun məğrur təbiətini və milli əqidəsini təcəssüm etdirən poeziyası S.Əsəd kimliyinin mənəvi-psixoloji obrazını özündə bariz şəkildə əks etdirən ən parlaq və nəhəng qaynaq kimi qalmaqdadır.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Dirili, Y. "Sərdar Əsəd yaddaşımda narazı şair kimi yaşayır" //"Kredo" qəz., 01 yanvar 2009.
2. Əsədov, S. Gənclik illəri / S.Əsədov. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1957, 62 s.
3. Əsəd, S. Səni axtarıram / S.Əsəd. Bakı, 1960
4. Əsəd, S. Yanan memar. / S.Əsəd. Bakı, 1963
5. Əsəd, S. Cərrah ürəyi. / S.Əsədov. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1965, 116 s.
6. Əsəd, S. Gözəl / S.Əsəd. Bakı, 1969
7. Əsəd, S. Simlərin tufanı / S.Əsəd. Bakı, 1971
8. Əsəd, S. Yer ulduzu. / S.Əsəd. Bakı: Gənclik, 1974, 175 s.
9. Əsəd, S. Dağları aşdı sellər / S.Əsəd. Bakı: Gənclik, 1977, 127 s.
10. Əsəd, S. İllər ayrısı / S.Əsəd. Bakı: 1987
11. Əsəd S. I cild. Yenə yaşayıram, mən yenə sağam! / S.Əsəd. Bakı: Şərq-Qərb, 2020, 872 s.
12. Fərəcov, S. Şair ürəyinin çırpıntıları // "Mədəniyyət" qəz., 02 iyul 2010.
13. Xələfli, Ə.R. Təlatümlər qəlbimdədir // "Kredo" qəz., 17 dekabr 2004.
14. Xəlilzadə, F. Sərdar Əsəd intihar etdəndən sonra Məmməd Araz özünə gələ bilmirdi // "Kaspi" qəz., 13 iyul 2013.
15. Kazımov, İ. Təzə doğulan şeir (29 dekabr 2004-cü ildə Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda S.Əsədin anadan olmasının 75-illiyinə həsr olunmuş tədbirdəki çıxış) // F.Çobanoğlu. Sənin söz dünyanı duyanların sözü (tədbirdəki çıxışların icmalı). "Kredo" qəz., 08 yanvar 2005.
16. Kazımov, T. "Balaca suçu"nun xatirələri // "Kredo" qəz., 31 dekabr 2004.
17. Yusifli, V. Sərdar Əsəd. Sevgidən intihara // "Ulduz" jur., 2012, № 3; https://manera.az/nesr/9801-serdar-esed-sevgiden-intihara.html

**Нателла Закир кызы КУЛИЕВА**

**Диссертант Бакинского Университета Евразии**
**Электронная почта: n.zakirli@gmail.com**

## ДУХОВНО-ПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ ЖИЗНЕННОГО ПУТИ САРДАРА АСАДА

### Резюме

В 50-х годах прошлого века С. Асад, начавший свою творческую деятельность с поэзии, своими чистыми, искренними и свежими стихами, а также своим теплым характером и устремленностью к национальным ценностям очень скоро привлек внимание национально настроенной интеллигенции своей эпохи. Хотя поэт, физическая и творческая жизнь которого совпала с советской эпохой, благодаря строгим обязательным принципам творческого метода соцреализма в своем творчестве прославлял также и советский строй, он до конца своей жизни всем своим существом оставался приверженным национальным и нравственным ценностям. В этом отношении прославление национального самосознания непосредственно проходит красной нитью в творчестве художника. Будучи человеком эмоциональным, С. Асад, поскольку абсолютно не мог идти против своих национальных убеждений и скрывать их, постоянно находился в конфликте с советскими реалиями литературной среды. Воплотившая в себе гордую натуру и национальные убеждения, его поэзия остается самым ярким и мощным источником, четко отражающим духовно-психологический образ личности С. Асада.

**Ключевые слова**: *Сардар Асад, Азербайджанская поэзия, стих, биография, репрессии, самоубийство, национально-нравственные ценности.*

**Natella Zakir GULIYEVA**

**PhD student of Baku Eurasian University**
**E-mail: n.zakirli@gmail.com**

## MORAL AND PSYCHOLOGICAL FEATURES OF SARDAR ASAD'S LIFE PATH

### Summary

S. Asad, who started his creativity with poetry in the 50s of the last century, quickly attracted attention of nationally-minded intellectuals of his time with his pure, sincere and fresh poems, as well as his warm character and commitment to national values. Although the poet, whose entire physical and creative life fell on the Soviet epoch, glorified the Soviet construction due to the strict mandatory principles of the socialist realism creative method in his work, he remained loyal to national and moral values with all his being until the end of his life. In this respect, the glorification of national identity by all means manifests itself as a continuous line in the poet's work.

As an emotional person, S. Asad was constantly in conflict with the Soviet realities of the literary environment, because he was unable to go against his national convictions and completely cover them up. His poetry, embodying his proud nature and national conviction, remains the brightest and most powerful source that clearly reflects the moral and psychological image of S. Asad's identity.

**Keywords:** *Sardar Asad, Azerbaijani poetry, poems, biography, repression, suicide, national and moral values*

**Daxil olub:** 02.09.2022
**Access date**